

### BAĞIŞLA MƏNİ...

Bilirəm, çox əzab vermişəm sənə,
Sənə yaşatmışam kədəri, qəmi.
Tanrım güzəşt edib olub-keçənə,
Sən də səbirli ol, bağışla, məni!

Qısqandım, kövrəltdim, incitdim səni,
Onsuz da, çəkdiyim dərdlər bəsimdir.
Um-küsü unudub, dinləyib məni,
Barış ürəyinlə bağışla, məni!

Çəkirəm iztirab sənsiz hər gecə,
Necə pərişanam gülüm, gör, necə?
Səni sevəcəyəm inan ölüncə,
Dünən də, sabah da, bağışla, məni!

Səni sevə- sevə açdım qəlbimi,
İndi sənsizliyin əyib qəddimi.
Kimə dil-dil ötüb deyim dərdimi,
Məlhəm ol, dərdimə bağışla, məni.

Min yol göz yaşıma qərq olmuşam mən,
Payız yarpağıtək tez solmuşam mən,
Divanə sevgidən, yorulmuşam mən
Nə olar, əzizim, bağışla, məni!

Bağışlaya bilsən qəbahətimi,
Gözəlim, görərsən sədaqətimi.
Duysaydın sən mənim məhəbbətimi,
Sən özün deyərdin bağışla,məni!

### ÖMRÜN PAYIZI

Elə bil, qəlbimə payız gəlibdir,
Üşüdür ruhumu yağan yağışlar.
Qızılı yarpaqlar səpələnibdir,
Boylanıb yollara baxır baxışlar.

Hər anı boz qışa bir addım yaxın,
Hər günü ömrümə bir xatirədir.
Hər düşən yarpağa bir dönüb baxın,
Bilərsiz bu həyat bir əfsanədir.

Kim bilir, bu duman niyə küskündür?
Payızdan xəlvətcə nə soruşur qış?
Sanki qəriblikdən geri dönübdür,
Yatanı yuxudan oyadır yağış.

Göstərir gələndə boz qış özünü,
Alır ağuşuna yazı payızı.
Boyayır ağ rəngə bu qış özünü,
Yamanca sərt olur ömrün payızı.

### GÖZƏLİM

Bilirsən, nə qədər çətindir mənə,
Sənsiz keçirdiyim günlər gözəlim.
Bənzərəm yağışa, dumana, çənə,
Sanki qəlbim yanar, inlər gözəlim.

Sənsiz puç olaram arzularımla,
Əriyib yanaram tənha, şam kimi.
Solaram, yaşaram xəyallarımla,
Gündüzüm görünər bir axşam kimi.

Torpaq da, səma da az olar mənə,
Soraram sevgimi günəşdən, aydan.
Bu aləm, bu dünya dar olar mənə,
Xəbərin də olmaz heç bu haraydan.

Düşərəm mən oda qar dənəsi tək,
Gözümün yaşı da söndürməz məni.
Olaram dərdindən nar dənəsitək,
Xoş günüm olsa da güldürməz məni.

Mən torpaq olmağa heç tələsmirəm,
Onsuz da don vurmuş torpaq təkiyəm.
Bu mənim taleyim, qorxub əsmirəm,
Mən sənin ilk eşqin, qəlbindəkiyəm.

### ALIN YAZIM

Mən ki, gülüm taleyi kəm,
Bəxti qara bir insanam,
Canımdadır kədərlə qəm,
Öz-özümlə vuruşanam.

Üzü dönüb fələyin də,
Ələnirəm ələyində,
Yazın, qışın küləyində,
Mən ruhumla danışanam.

Gözümdə yaş giləlenir,
Kipriklərimə bələnir,
Dərd üzümdən səpələnir,
Dərdlərimə qarışanam.

Gecə mənə sirdaş olur,
Ruhum ona yoldaş olur,
Köksümdə ürək daş olur,
Tənhalıqdan alışanam.

Budur mənim alın yazım,
Qəm içində batım, azım,
Daha nə deyim, nə yazım,
Taleyimlə barışanam.

### MƏNƏM MƏN

Bu cahanda kimsə doymaz yarından,
İgid odur yara verər canını.
Yarın sevən uzaq qalmaz yarından,
Öz yarımın divanəsi mənəm mən.

Yar yarını gec-gec görsə saralar,
Acı sözlər yar könlünü yaralar.
Yar qadasın yar istəsə yar alar,
Bu həsrətin pərvanəsi mənəm mən.

Yaşıl çəmən, taləzarlıq, bənövşə,
Yar yanağı şölə saçar günəşə.
Yar yarını sevib səslər görüşə,
O günlərin nişanəsi mənəm mən.

Nə gözəl yaradıb yarı yaradan,
Xəlq eyləyib bizə yarı Yaradan.
Yar yarına yaxın olar yarından
Bil, yarımın tərənəsi mənəm mən.

### DƏRDİM

Külək məni döyür, qəmə batıram,
Ağlımı başımdan alıb aparır,
Sən deme arzuma belə çatıram
Meylini qəlbimə salıb aparır.

Nə şərab içmişəm, nə mey dadmışam,
Mən ki, yerə- göyə tamam yadmışam.
Bəlkə də, özümü aldadırmışam,
Məhəbbət içimi dəlib qoparır.

Dünən vücudumla bir insan idim,
Bu günsə bir ovuc torpağam mən də.
Bir ömür yaşadım, çox peşman idim,
Bilmirdim, duymurdum qonağam mən də.

Sənlə bahar ətri duyduğun o gün,
Başını sinəmə qoyduğun o gün,
Sevgimi gözümdən duyduğun o gün,
Eşitdim könlünün səsini gülüm.

### DARIXACAQSAN

Bir gecə yenə də tənha qalanda,
Gözləyib yolumu darıxacaqsan.
Bu sevgi səni də dərdə salanda,
Gözlərin yol çəkər, darıxacaqsan.

Geridə qoyanda şaxtalı qışı,
Üşüdər könlünü bahar yağışı.
Yandırsa gözünü özgə baxışı,
Bir təmiz nur üçün darıxacaqsan.

Yuxu da gecələr gəlməz gözünə,
Elə bil güzgüdə baxıb özünə,
Acı söz qatarsan şirin sözünə,
Küsüb barışaraq darıxacaqsan.

Yadına saldıqca olub-keçəni,
Üzəcək keçmişin kədəri səni,
Məcnuntək divanə görəndə məni,
Kövrəlib, ağlayıb, darıxacaqsan.

Çağır, səslə gülüm, dönüm geriyə,
Sevirəm sözünü mən deyə-deyə,
Daha qayıtmarıq o xoş gəncliyə,
Hər gün hər an üçün darıxacaqsan.

### ƏLVİDA DEDİYİM GÜN

Dünyaya əlvida dediyim o gün,
Bağlanım torpağa bəlkə büsbütün.
Qoruyum torpağın məhəbbətini,
Qazanım Tanrının mərhəmətini.

Bəs, mən necə görüm Günəş doğanda?
Bəs, necə boylanım yağış yağanda?
Bəs, necə eşidim quşların səsin?
Bəs, kimə oxuyum sevgi nəğməsin?

Gözlərim dikilsin axan çaylara,
Əlvida deməyim ötən aylara.
Qəlbimi isitsin sənin nəfəsin,
Sönüb qurtarmasın sevən həvəsin.

Laləli çəmənin nəmli şehini,
Əsən küləklərin həzin mehini,
Görməsəm torpaqda darıxacağam,
Elə bilərəm ki, bu yer üzündə
Sönməyən, əbədi yanar ocağam.

### KÖNLÜM

Nədəndi bilmirəm, tələsir yaman,
Qorxmazdı borandan, küləkdən könlüm.
Vaxtsız payız gəlir, yel əsir yaman,
Özünə yurd salır çələngdən könlüm.

Yağışlar söndürər hicranın közün,
Kədərdən saralar həsrətin üzü.
Ayrılıq anında o nəmli gözü,
Dərdini soruşur ürəkdən könlüm.

İstidə üşüyür, qışda qovrulur,
Həsrətdən, nisgildən daş da qovrulur.
Qurunun oduna yaş da qovrulur,
Soruşmur dərdimi mələkdən könlüm.

Deyildir əbədi, fani dünya da,
Özündən bezibdir bəlkə, dünya da.
Sovrulub, soyulub, hey salıb yada,
Eşqini keçirib ələkdən könlüm.

Bir uşaq sevdası qalıb yadımda,
Bir ömür yaşandı təmiz adımda.
Bir alın yazımda, min inadımda,
Keçibdir arzudan, diləkdən könlüm.



Mübariz Süleymanlı